

*Ələsgər ƏLİOĞLU*

# BİR KİŞİNİN QOLU

***1990-cı ilin yanvar hadisələri zamanı Bakıda şəhid olanların "Səhər" qəzetində verilmiş siyahısında belə bir ad da oxudum:Bir kişinin sağ qolu***

**Azadlıq yolunda**
**Qalxıb haqq sözü kimi,**
**Döyüşüb bu qol.**
**Vətənin bir parçasıtək,**
**Bədəndən**
**Ayrı düşüb bu qol!..**
**Bu qol**
**Bakının başı üzərindən**
**Qara bayraqtək asılmış**
**O qanlı gecəyə şahiddir.**
**Bu qol**
**Torpaq uğrunda gedən**
**Bir şəhiddir!..**
**Yoxsa haqq-ədalət**
**Sutək buxarlanıb göyə;**
**Yoxsa yuxu görürük indi!?**
**Müsibətli günlərimiz varmış İlahi,**
**Qola başsağlığı veririk indi...**
**Eheyy!..**
**Qəbirqazan,**
**Dağüstü parka çıx,-**
**Orada uyuyur babalarımızın səbri.**
**Özünü sına bir,-**
**Gör bacara bilirsənmi,**
**Orada qazasan**
**İndi də bir qol qəbri...**
**Eheyy!..**
**Qəbirqazan,**
**Gəl,bu qolu cəld dəfn edək,**
**Sonra iş-işdən aşar.**
**Bax yoxsa,**
**Bu qol uzanar birdən,-**
**Kremlin yaxasından yapışar!..**

**1990**

# BU QOLU KÖKSÜNƏ SIX...

***"Bir kişinin qolu" şeirini yenicə yazmışdım ki,mətbuatda yeni bir məlumatla qarşılaşdım. Sən demə,haqqında yazdığım qol -Yanvar faciələrində həlak olmuş,cəsədi hələ də tapılmayan 26 yaşlı Yusif Sadıqovundur.***

**Düşüb küçələrə neçə gün idi,**
**Bir ana**
**Havalı-havalı oğul gəzirdi.**
**Xəstəxana gümanları,**
**Meyitxana dumanları**
**Onu budaq-budaq kəsirdi.**
**Cızdığını çıxarmışdı dərdin odu,-**
**Bircə kəlmə-bircə yarpaqtək**
**Kölgə salmışdı dilinə:**
**"Daha dərdim olmazdı dünyada,**
**Əlim çatsaydı oğlumun əlinə!"**
**Ana gecələri keçirirdi**
**Gözlərinin qorasından.**
**...Bir gün oğlunun əlinə çatdı əli,**
**Şəhidlərin arasında...**
**(Tanrı niyə dilindən tutdun bəndənin!?)**
**Ananın əlini**
**Oğlunun əlinə çatdırdın,-**
**Bəs hanı bu oğulun bədəni!?**
**Günah özündədir, zavallı ana,**
**Nə dilək diləmişdinsə,**
**Ona da çatdırdı Tanrı!**
**Şükür elə,**
**Bədənsiz qolu**
**Köksünə sıx barı!..**

**1990**